


Azərbaycan Xarici İşlər Nazirliyi oktyabrın 9-da keçirilən prezident seçkiləri ilə bağlı bəyanat yayıb. XİN-in mətbuat xidmətindən göndərilən məlumata görə, bəyanatda deyilir ki, seçkilərdə 10 namizəd iştirak edib, ölkədə seçki məntəqələrinin sayı 5492 olub, Azərbaycanın xaricdəki diplomatik və konsulluq nümayəndəliklərində 37 seçki məntəqəsi yaradılıb.

Daha sonra bəyanatda qeyd olunur ki, uzun və qısamüddətli müşahidələr 53 000 müşahidəçi tərəfindən icra olunub. Azərbaycan hökuməti və parlamenti tərəfindən dəvət olunan və 100 ölkəni, ATƏT, AŞPA, Avropa Parlamenti, GUAM, İƏT, QDİƏT və s. təşkilatları və müxtəlif QHT-ləri təmsil edən 1300 beynəlxalq müşahidəçi də seçkilərdə fəaliyyət göstərib.

Bəyanatda bildirilir ki, seçkilər qanunvericiliyə tamamilə uyğun olub və seçicilərin fəallığı ilə müşahidə edilib. Qeydə alınmış 5 145 000 milyon seçicidən 72.31 faizi seçkilərdə iştirak edib. Azərbaycan Mərkəzi Seçki Komissiyanın ilkin məlumatına görə, hazırkı prezident İlham Əliyev səslərin 84.55 faizini toplayıb.